Ədəbiyyat qəzeti

# Pyesdən tamaşaya qədər keçən yol



**Bəhram OSMANOV**

*Azərbaycan və Kalmıkiya Respublikasının Əməkdar incəsənət xadimi, rejissor*

# Əli Əmirli: "Köhnə ev"

## *İkihissəli dramatik komediya*

*(Əvvəli ötən sayımızda)*

Darıxan təkcə Böcəkdir. O, bu danışıqları başa düşmür. Ara-sıra özünü ortaya ataraq dediyi sözlər isə gülüş doğurur...

Qapı zəngi...

Cana diksinərək ayağa durur. Nəzərləri istər-istəməz anası ilə toqquşur. Zəhra qalib kimi işarə edir ki, Cana qapını açsın!

Yenə zəng!..

Cana qapını açmaq istəmir!

Zəhraya qarşı üsyan!

Növbəti zəng!

Kamran sanki ev sahibi kimi qapını açmaq üçün ayağa qalxır. Cana məcbur olub özü qapını açmağa gedir.

Sahib və Cana görünürlər. Cana Sahibdən xahiş edir ki, evi satdıqları barədə bu gün heç nə danışmasın. Sahib söz verir və kaminin yanında qoyulmuş kresloya tərəf gedir. O, bu evə gələndən kreslodan yaman xoşu gəlib. Kreslonun rahatlığı onu iş-gücdən ayıraraq mürgüləməyə belə sövq edib. Sahib qeyri-ixtiyari kresloya "mənim kreslom" deyir.

Kamran Zəhra ilə "Traviata"dan duet oxuyurlar...

Böcək meydana çıxıb rəqs edir.

Oriental!

Hamı şok içindədir!

Çünki bu evdə heç vaxt belə rəqslər oynanılmayıb!

Kamran bir təhər Böcəyi sakitləşdirir...

Kamran:

- Paltarını geyin, Böcək! Burası İstanbul deyil, Bakısıdır.

Böcək:

- Kan kardeşlerimə şu canımı da kurban veriyorum.

Qüdrət:

- Xalq bir tikə çörək üçün ev-eşiyini, torpağını qoyub gəlib şəhərə, siz də burada göbək tərpədirsiniz. Millət qan ağlayır, siz isə...

Cana:

- Baba, bu sənətdir...

Sahib:

- Özü də incəsindən...

Qüdrət:

- Bu kimdir, mən onu tanımıram.

Demək Cana Sahibi təqdim etsə də kimsə onunla maraqlanmayıb!

Cana:

- Dedim axı, Sahib bəy biznesmendir, kapitalist.

Qüdrət:

- Mən kommunistəm!

Sahibin Qüdrətlə mübahisəsi başlayır. O, Qüdrətin daha çox iclaslardan, qonaqlıqlardan, kef məclislərindən başqa nə işlə məşğul olduğu ilə maraqlanır. Və Qüdrət çaş-baş qalır... O, doğrudan da Sahibin verdiyi suala cavab tapa bilmir.

Çünki Qüdrət Sovet dövrünün qəhrəmanıdır. Sovetlər dövründə isə sadə əmək qəhrəmanlarından zəhmətkeş simvolu düzəltməyi yaxşı bacarırdılar. Onlar ölkənin ən ali mükafatlarına layiq görülürdülər. Ən ali iclaslarda sadə insan əməyinin qüdrətindən danışırdılar. Onlrаın əvəzinə isə başqaları işləyirdi. Çünki simvola işləmək qadağandır!

Simvol səliqəli olmalıdır!

Simvol örnək olmalıdır!

İndiki yeni qurulan cəmiyyətə isə yalançı zəhmətkeş simvollarına ehtiyac yoxdur. İndi hər kəs öz əməyinə, hər kəs öz qabiliyyətinə görə pul qazanmağı bacarmalıdır!

Və bu gün Qüdrətə dövlət tərəfindən verilən daha bir imtiyaz - ev də satılıb! Və Qüdrətin dəmir orden-medallarından başqa heç nəyi yoxdur!!

Qüdrət isə baş verənləri bilmədiyindən hələ də özünü qəhrəman kimi aparır! Sahibi təhqir edir.

**Hadisə:** "Ev satılıb".

Bunu Sahib dedi! O, Cananın xahişinə əməl edə bilmədi. O, qocanın təhqirlərinə dözə bilmədi...

Məclis dağılır. Və ən qəribəsi odur ki, kimsə irəli çıxıb nəyi isə dərindən araşdırmaq həvəsində olmadı. Sahib də qalib kimi rahatlıqla çıxıb gedir. Cana isə süfrəyə baxaraq cibindən kalkulyatoru çıxarıb saymağa başlayır. Cana artıq neçə illərdir hər şeyi sayır. Artıq xərcləmək istəmir!

Dövrün tələbi!

Dövrün tələbi ilə yaşamağı bacarmaq lazımdır!

Böyük A.S.Puşkinin bir deyimi var: "İnsan təklif olunmuş vəziyyətdə yaşamağı bacarmalıdır".

...Evdə köçmək üçün yır-yığış gedir. Bağlamalar, qutular bir küncə yığılıb. Əlbəttə ki, bu işləri Mələklə Cana edir. Zəhra dünənki məclisdən - əgər dünən baş verənlərə "məclis" demək olarsa, Kamranla gedəndir, hələ evə qayıtmayıb. Cana yenə hər şeyi siyahıya alır. İlk baxışdan köçə hazırdırlar.

Mələk:

- Ta elə bir şey qalmadı, bir Ananın şəklini çıxara bilmədim, nə gücüm çatdı, nə əlim. O vaxt Qüdrət Qurbanoviç asmışdı, onda Ana bədbəxt ölüm yatağındaydı. İndi hardasa ruhu burdadı. Gözlərini birdəfəlik yumanda dedi ki, Qüdrət, Melyadan nigaran gedirəm, onu sənə tapşırıram, ne obijay yeyo.

**Qeyd:** Bəlkə də Mələyin ərə getməməsinin səbəbi Qüdrət olub. Bəlkə Mələk gözləyirdi ki, Qüdrət nə vaxtsa ona isinişib eşq elan edəcək?!

Bəlkə?!

Bu "bəlkələr" həmişə tamaşanın təhlil prosesində meydana çıxır və məntiqi yozuma gəlməsə də, bir tapmaca kimi aktyora oyun üçün böyük imkanlar yaradır.

Cana:

- Melya, bəsdi, getdiyimiz yerdə yasxana açma. Yaşamaq istəyiriksə getməliyik, köçməliyik bu evdən.

Yaşamaq istəyi!

Nə olur-olsun dövrün tələbinə uyğunlaşmaq lazımdır!

Hər şey proqramlaşmalıdır!

Keçmişə, bütün yaxşı olanlara əlvida!

Yeni həyata qatılmaq!

Mələk:

- Axı mən başa düşmürəm, Cana, axı niyə biz halalca evimizdən köçməliyik?

Cana:

- Sizin qəsdiniz məni öldürməkdir.

Mələk:

- Allah eləməsin, Cana, sənsən bizi saxlayan...

Zəhra peyda olur. Dünənki səliqəsindən əsər-əlamət qalmayıb... Evə baxır, bir küncdə oturur.

Zəhra:

- Mənim ürəyim partlayacaq, dözə bilməyəcəyəm.

Bilinmir dağılmış evə görə ürəyi partlayacaq, yoxsa Kamrandan narahatdır?

Zəhra:

- Kamran zəng eləməmişdi?

Mələk:

- Yox, eləməyib, heç kəs zəng eləməyib, indi biz kimə lazımıq?

Zəhra:

- Əlbəttə. İndi onun öz evi, ailəsi, iki illik kontraktı. İndi mən ta o Zəhra deyiləm ki, qapımda yata. İndi mənim nəyim var ki, mən kiməm? Bir evim vardı, onu da aldılar əlimdən.

Zəhranın üsyanı!

Gizli!

Xısın-xısın!

Unudulmaq, tək qalmaq qorxusu!

Cana:

- Bilmirəm, bəlkə siz yaşayıb doymusunuz, amma mənim həyatım hələ indi başlayır, mən sizinlə bu evdə ölmək istəmirəm!

Yenə üsyan!

Yeni nəslin üsyanı!

Açıq üsyan!

Qəribə də olsa ən yaxın adamlara!

Bu üsyan açıq, qəddar olsa da, Cana üçün doğrudan da çətindir. O, yeni dövrün tələblərinə uyğunlaşmaq istəyəndə üç doğma "qoca" ona mane olur. Cana doğmalarını sevir, onları qorumaq istəyir. Və pisi budur ki, doğmaları onu başa düşmürlər. Axı o da zəifdir, köməksiz qadındır. Ona çətindir. Bəlkə də hamıdan çox ona çətindir. O təkdir və onun da tənha qalmaq qorxusu var!

Mələklə Cana yenidən otaqlara çəkilirlər. Zəhra tək qalır.

Ü.Hacıbəyov "Koroğlu" operası.

Nigarın ariyası!

Zəhra bu operada ən parlaq obraz yaratmışdı. Adı dillərə düşmüşdü!

Bütün kübar məclisləri onu görəndə ayağa durardu. İndi isə artıq o günlər keçmişdə qalıb...

Qüdrət otağından çıxır. Əlində Ananın şəkli var. Qəribədir, qoca, xəstə adam o şəkli necə çıxarıb? Axı Mələk çıxara bilməyib. Deməli Mələk yalan deyib. O, sadəcə şəkli çıxarmaq istəməyib. Düşünüb ki, bəlkə sovuşdu. Bəlkə hər şey öz qaydasına düşdü. Qüdrət isə şəkli divardan asanlıqla çıxartdı.

Bəlkə də evdən köçmək qərarını Qüdrət şəkli divardan çıxartmaqla doğmalarına bir işarə verdi ki, ona doğma olan ancaq şəkildir və onların bəlkə də yalandan ağlayıb-sızlamasına ehtiyac yoxdur.

Mələk:

- Qüdrət Qurbanoviç, niyə durduz, axı sizə olmaz. Bu şəkli necə çıxartdız, heç mənim gücüm çatmadı?

Qüdrət:

- Burda güc lazım deyildi, Melya, ağıl lazımdı, o da ki, səndə... Bu mebeli də aparın, qoymayın qalsın.

Zəhra:

- Mebeli necə aparaq, ordakı otaqlar qutu kimidir.

Qüdrət:

- Onda sındırın, dağıdın, yandırın, qoymayın düşmənə qalsın!

Şan-şöhrətli ev!

Şan-şöhrətli mebel!

Qüdrətin şöhrəti!

Hamının həsəd apardığı şöhrət dağıldı!

Qüdrət uduzduğunu anlasa da, üzə vurmur! Axı o, inanırdı ki, onun zəhmətləri bahasına qazandığı şöhrət heç vaxt onu atmayacaq! Və o, elə bu şan-şöhrətlə dünyadan köçəcək, adı nəsildən-nəslə keçərək bir örnəyə çevriləcək.

Qüdrət üsyan etmək niyyətindədir.

O, bu evi tərk etməyəcək!

Vuruşacaq!

Əvvəllərdə olduğu kimi düşmənlərə qarşı vuruşacaq!

Yeni tema yoxsa ölmüşlərin təkrarı?

Bəlkə də obrazın hərəkət xəttinə bir baxış! Axı hamı nə isə edir yaşamaq naminə. Bu zavallı qoca isə ancaq xatirələr uyduraraq danışır. O, danışmağa adət edib. Hərəkət etmək taqətində deyil. Onun üsyan barədə, vuruş barədə dedikləri isə sadəcə istehza doğurur.

Vəssalam!

Bir epoxa bitmək üzrədir!

Çıxış yolu yoxdur!

Kamran peyda olur.

Zəhragilin köçməli olduqlarını o, indi bilərək peyda oldu. Qısa replikalar. Yalançı həyəcanlı kəlmələr.

Zəhranın yenə məhəbbət damarı tutdu!

Yenə naz!

Yenə işvə!

Kamranın isə artıq halı yoxdur. O, bu illər ərzində çox dəyişib. Və anlayıb ki, qarın dolu olmayanda sənət kimsənin yadına düşmür.

Kamran:

- İndi mənim nə evim, nə işim, nə də arvadım var. Ən böyük həqiqət budur.

Sən demə, Kamran böyük sənət arxasınca Türkiyəyə üz tutanda Bakıdakı evini satıb. Və inanmayıb ki, bir daha bura dönərək, yaşayacaq. Əlbəttə, Kamran Bakıya dönmək istəyirdi. Böyük bir müğənni kimi... Xüsusi qarşılamalar, xüsusi görüşlər, mehmanxanada lyuks nömrə və s. Amma təssüf ki, it də getdi, ip də. Və apardığı bütün pulları xərcləyəndən sonra o, başa düşdü ki, Türkiyədə onun kimi müğənnilər doludur. Bakıya dönəndən sonra isə "arvadı" kimi qələmə verdiyi Böcək də onu ataraq qaçıb. O, indi əsl bomjdur. Vətəndə bomj...

*(Davamı gələn sayımızda)*